# AZƏRBAYCAN

ƏDƏBİ-BƏDİİ JURNAL



1
2013



**Hörmətli İntiqam müəllim!**

Sizi və əməkdaşlarınızı jurnalınızın şərəfli yubileyi münasibəti ilə ürəkdən təbrik edirəm! Geniş oxucu kütləsinə, ədəbiyyatsevərlərə yaxşı məlumdur ki, bizim ölkədə nəsr, poeziya, tənqid və ədəbiyyatşünaslıq əsərlərinin ən kamil toplusu "Azərbaycan" jurnalıdır. Jurnalın redaksiyası doxsan il ərzində aybaay ədəbi prosesi diqqətlə izləyir və maraqlı əsərləri seçib onları xüsusi qayğı ilə çapa hazırlayır. Şəxsi əməkdaşlığım belə deməyə mənə əsas verir.

"Azərbaycan" jurnalı istedadlara qarşı həssasdır. Uzun illərdir ki, neçə-neçə istedadlı gəncin ilk qələm təcrübələrini nəşr etməklə ədəbi prosesin qapılarını onların üzünə açıb. Azərbaycan yazıçılarının böyük əksəriyyəti məhz "Azərbaycan" jurnalının səhifələrindən oxucu dünyasına addımlamışdır. Onlardan bəzilərinə ölümsüzlüklərini qazanmaq xoşbəxtliyi də bu jurnalın səhifələrində nəsib olub. İndi onları bütün xalq tanıyır, dünya oxuyur.

Son doxsan il ərzində ölkəmizin keçdiyi kəşməkəşli yolda insanların taleləri, ağrı və acıları təsirli bədii lövhələrlə "Azərbaycan" jurnalında mütəmadi olaraq əksini tapmış və bu gün də tapmaqdadır. Ölkəmizin ictimai-siyasi həyatında baş verənləri dərk etməkçün jurnalın saylarında dərc olunan nəsr əsərlərini, poeziya nümunələrini və bədii publisist yazıları oxumaq kifayətdir.

**Hörmətli İntiqam müəllim!**

Siz həyatınızın böyük hissəsini - düz otuz yeddi ilini "Azərbaycan" jurnalına həsr etmisiz. Bu gün, jurnalın doxsan illik yubileyində mən əminliklə deyə bilərəm ki, Sizin kimi çox fəal və düşünən bir baş redaktorun, yüksək zövqlü peşəkar tənqidçinin, nəhayət, ədəbiyyat təəssübkeşinin bu nəşrin uğurlarında payı az olmamışdır.

Mənim simamda jurnalınızın bütün müəllif və oxucuları adından minnətdarlığımızı lütfən qəbul edin. Azərbaycan ədəbiyyatının ən yaxşı nümunələrinin yayılması və təbliği kimi nəcib işinizdə Sizə və bütün əməkdaşlarınıza yeni-yeni uğurlar arzulayıram.

***Maksud İBRAHİMBƏYOV***